# Ətraf mühitə dair məlumatların bölüşdürülməsi və yayılması

## Ölkə üzrə ətraf mühitin inkişaf səviyyəsinə dair hesabat: Azərbaycan
## Qısa xülasə

**2020-ci ilin iyun ayı**

**Avropa Ətraf Mühit Agentliyi ilə müqavilə əsasında PricewaterhouseCoopers Şirkəti tərəfindən hazırlanmışdır**



*Bu layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir və Avropa Ətraf Mühit Agentliyi tərəfindən həyata keçirilir*

European Environment Agency

**Hüquqi bildiriş**

Bu hesabatın məzmunu 3437 / R0-ENIE / EEA.57335 saylı Avropa Ətraf Mühit Agentliyi (AƏMA) ilə xidməti müqavilə əsasında PricewaterhouseCoopers tərəfindən hazırlanmışdır və heçdə mütləq şəkildə Avropa Komissiyasının və ya Avropa Birliyinin digər qurumlarının rəsmi fikirlərini əks etdirmir. Avropa Ətraf Mühit Agentliyi və ya Agentlik adından çıxış edən istənilən şəxs və ya şirkət bu hesabatda olan məlumatın istifadəsinə görə məsuliyyət daşımır.

Bu hesabat PricewaterhouseCoopers tərəfindən yol xəritəsinin hazırlanması və ətraf mühitə dair məlumatların milli elektron idarəetmə/açıq məlumat prosesləri və platformalarına inteqrasiyası üçün mümkün və praktik vasitələrin müəyyənləşdirilməsi layihəsi çərçivəsində hazırlanmışdır.

Bu tədbir “ENI SEIS II East 2016-2020” layihəsi çərçivəsində həyata keçirilir. Hesabat 2018-ci ildə hazırlanmış və 2019-cu ilin ərzində yenilənmişdir.Bu, 2019-cu ilin mart ayında Kiyevdə keçirilmiş regional görüşdən sonra ilk dəfə, 2019-cu ilin sentyabr ayında keçirilən dəyirmi masadan sonra isə ikinci dəfə təhlili edilmişdir. Hesabat 2020-ci ilin yanvar ayında Azərbaycanda dövlət qurumları tərəfindən şərh edilmişdir.

Hazırkı hesabat bu hesabatda ətraflı şəkildə təsvir edilmiş ictimaiyyətə açıq olan müxtəlif mənbələrdən əldə edilmiş və ya əldə edilmiş məlumatları ehtiva edir və ölkədəki ətraf mühit məlumatlarının, açıq məlumatların və elektron hökumətin hərtərəfli təhlili olmaq məqsədi daşımır, bu, milli ekoloji məlumatların strukturunu formalaşdıran əsas elementlərin toplusudur.



*Bu layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir və Avropa Ətraf Mühit Agentliyi tərəfindən həyata keçirilir*

European Environment Agency

# Qısa xülasə

Hesabat Aİ tərəfindən maliyyələşdirilmiş və Avropa Ətraf Mühit Agentliyi tərəfindən həyata keçirilmiş "Şərq Tərəfdaşlığı ölkələrində Birgə Ekoloji İnformasiya Sisteminin prinsiplərinin və təcrübələrinin tətbiqi" layihəsi çərçivəsində 2018-2020-ci illərdə hazırlanmış və daha sonra yenilənmişdir. Hesabatın hazırlanmasında milli dəstək Azərbaycanda müxtəlif, xüsusilə ətraf mühiti və statistika ilə bağlı qurumlarla geniş dialoq və məsləhətləşmələr vasitəsilə təmin edilmişdir. Bundan əlavə, İT və e-hökumət daxil olmaqla, müxtəlif siyasət sahələri üzrə mütəxəssislər milli və regional tədbirlərdə iştirakə cəlb edilmişdir. Bu fəaliyyət ətraf mühitə xüsusi diqqət yetirərək ölkədə elektron hökumətin gələcəyi barədə fikir mübadiləsi və açıq məlumatların bölüşdürülməsinə imkan yaratmışdır. Nəticədə, sənəddə milli e-hökumət çərçivəsinə, açıq məlumatların yetkinlik səviyyəsinə və Azərbaycanda ətraf mühitə dair məlumatların bölüşdürülməsi üzrə ümumi məlumat verilir. Təhlil aşağıdakıları əhatə edir:

- açıq məlumatlardan və e-hökumətin qərarlarından istifadə etməklə mövcud strateji istiqamətlərin və ətraf mühitə dair məlumatların yayılması üçün mövcud vasitələrin müəyyənləşdirilməsi üçün normativ bazanın xülasəsi;
- e-hökumət, açıq məlumatlar, eləcə də ətraf mühitə dair məlumatların yayılması ilə bağlı tələblərin müəyyən edilməsi üçün normativ bazanın xülasəsi;
- gələcəkdə tətbiq edilməsi zəruri olan texniki imkanların və təkmilləşdirmə işlərinin müəyyən edilməsi üçün texnoloji həllərin qiymətləndirilməsi.

Yuxarıda göstərilənlərə əsaslanaraq, bu sənəd ətraf mühit sahəsini və ya xəttə bu sahədən kənarda olan sahələri əhəmiyyətli dərəcədə dəstəkləyəcək elektron hökumətin inkişafına və açıq məlumatlar sistemlərinə yönəldilmiş tədbirləri əhatə edən yol xəritəsini təklif edir. Yol xəritəsi tətbiqetmə prosesi ərzində canlı bir sənəd olmaq üçün hazırlanmışmışdır və inkişafın müxtəlif mərhələlərində irəliləyişin qiymətləndirilməsində bençmark kimi istifadə edilir.

Hazırkı hesabatın hazırlanması zamanı istifadə edilən metodologiya Avropada açıq məlumatların yetkinliyi üzrə Avropa İttifaqının 2018 və 2019-cu illərin hesabatlarına əsaslanır. Şərq tərəfdaşlıq ölkələrində vəziyyətin xüsusiyyətlərini, eləcə də ətraf mühitə dair məlumatı nəzərə alaraq bəzi düzəlişlər edilmişdir.

**Elektron hökumət**

Son beş il ərzində Azərbaycan idarəetmə strukturunun təkmilləşdirilməsi, dövlət idarəetmə sektorunun effektivliyinin artırılması və göstərilən dövlət xidmətlərinin keyfiyyətinin təkmilləşdirilməsi istiqamətində çalışır. 2014-cü ildə Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya qəbul edilmişdir. Strategiyada əsasən İKT-nın inkişafına və dövlət idarəetmənin rəqəmsallaşdırılmasına diqqət yetirilərək, dövlət orqanlarının konkret fəaliyyəti və məsuliyyəti müəyyən edilir. Strateji məqsədlərin 2020-ci ilədək planlaşdırdığına görə elektron hökumət sahəsində irəliləyişin qiymətləndirilməsinə başlamaq lazımdır və əldə edilən nəticələrə əsasən növbəti onillik üçün yeni strateji proqram tez bir zamanda qəbul edilməlidir.

Mövcud qanunvericilik bazası vahid idarəetmə modelini, eləcə də dövlət informasiya ehtiyatlarının işlənib hazırlanması, saxlanması və inteqrasiyası prosedurlarını əhatə edir. Lakin bütün əlaqəli hüquqi, texniki və əməliyyat komponentləri ilə qarşılıqlı fəaliyyət aspektlərini əhatə etmək üçün hüquqi baza daha da inkişaf etdirilə bilər.



*Bu layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir və Avropa Ətraf Mühit Agentliyi tərəfindən həyata keçirilir*

European Environment Agency

Dövlət qurumları arasında məlumat mübadiləsinin təşviq edilməsi, eləcə də əhaliyə və biznes qurumlarına elektron xidmətlərinin göstərilməsinin təmin edilməsi məqsədilə ölkədə “Elektron Hökumət” Portalı və “Elektron Hökumət” Şlyuzu kimi əsas texnoloji həllər işlənib hazırlanmışdır.

Azərbaycan hazırda 454 elektron dövlət xidməti göstərən “Elektron Hökuməti” vahid portal yaratmışdır. Bundan əlavə, 2018-ci ildə dövlət orqanları arasında məlumat mübadiləsini birləşdirən bir “E-hökumət” şlyuzu istifadəyə verilmişdir. Hazırda 42 dövlət orqanı bu infrastruktura qoşulub. Eyni zamanda, “Elektron Hökumət” Şlyuzu elektron dövlət xidmətlərinin göstərilməsi proseslərini daha səmərəli olmasına imkan verən məlumat mübadiləsini təmin edir. Ekoloji məlumatların mübadiləsi və qarşılıqlı fəaliyyətin, eləcə də ekologiya sahəsində electron dövlət xidmətlərinin göstərilməsinin təkmilləşdirilməsi məqsədilə “Elektron Hökumət” Portalından və “Elektron Hökumət” Şlyuzundan istifadə etmək tövsiyə olunur.

**Açıq məlumatlar**

Azərbaycanda mövcud qanunvericilik bazası ictimaiyyətin məlumat əldə etməsinin əsas prinsiplərini müəyyənləşdirir. Lakin açıq məlumatlar üzrə təşəbbüsün və ya açıq məlumatların idatəetmə strukturunun yaradılması, eləcə də açıq məlumatlardan istifadə imkanını və məlumatların idarə edilməsini təmin edən dövlət qurumların öhdəliklərinin tənzimlənməsi qanunvericilikdə nəzərdə tutulmayıb. 2014-cü ildə qəbul edilmiş Milli Strategiya açıq məlumatları strateji prioritetlərindən biri kimi əhatə etmir. Beləliklə, ölkədə açıq məlumatlar siyasəti işlənib hazırlanmayıb. Nəticədə, dövlət orqanlarının çoxu ictimaiyyət üçün nəzərdə tutulan məlumatları internetdə yerləşdirmir. Dövlət qurumları arasında məlumat mübadiləsi hələ də “kağızla aparılan” proses olaraq qalmaqdadır və bu çox əmək tələb edir. Açıq məlumatların hazırlanması, toplanması, müntəzəm olaraq yenilənməsi, eləcə də keyfiyyətin təminatı, keyfiyyətə nəzarət və açıq məlumatların yayılması üçün qayda və prosedurları müəyyənləşdirən dəstəkləyici normativ baza hələ işlənib hazırlanmayıb.

Gözlənilən on il ərzində yeni strateji proqramın işlənib hazırlanmasını nəzərə alaraq, açıq məlumatlar aspektinin məzmununa görə önəmli yer tutması və digər Şərqi Tərəfdaşlıq Proqramı ölkələrinin müqayisəli səviyyəsinə qədər qaldırılması, texnologiyalar bazarının artımı və beynəlxalq potensialı kimi iqtisadi, sosial və ekoloji faydalar, eləcə də dövlət idarəetmə xərclərinin azaldılması mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan, Azərbaycan açıq məlumat siyasətinin işlənib hazırlanmasını, açıq məlumatların idarə edilməsinin əsas prinsiplərini və dərc ediləcək prioritet məlumat toplularını nəzərdən keçirə bilər. Bundan əlavə, dövlət orqanları açıq məlumatların idarə edilməsi və yayılması üzrə hazırda mövcud olmayan aydın şəkildə müəyən edilmiş öhdəlik və prosedurlardan əhəmiyyətli dərəcədə bəhrələnə bilər.

Buna baxmayaraq, ölkə açıq məlumat infrastrukturunun inkişafında irəliləyiş əldə etmiş və 2017-ci ildə açıq məlumatlara vahid giriş nöqtəsi kimi Açıq Məlumatlar Portalını işə salmışdır. Açıq Məlumatlar Portalında bütün məlumat topluları maşın tərəfindən oxunur, istifadə və təkrarən istifadə edilə bilər. Portalda təxminən 700 məlumat toplusu var və onun əksəriyyəri 2017-ci ildə etibarən yenilənməmişdir, bu isə, açıq məlumatların potensialını və istifadə imkanlarını məhdudlaşdırır.

**Ətraf mühitə dair məlumatların bölüşdürülməsi və yayılması**

2002-ci ildə qəbul edilmiş “Ətraf mühitə dair informasiya almaq haqqında” Qanun ətraf mühitə dair məlumatların istifadə hüququ üzrə əsas prinsipləri müəyyən edir. Bu Qanun ətraf mühitin monitorinqi və hesabatı ilə məşğul olan dövlət orqanlarının hər 3 ildə bir dəfə bir ətraf mühitin



*Bu layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir və Avropa Ətraf Mühit Agentliyi tərəfindən həyata keçirilir*

European Environment Agency

vəziyyəti barədə hesabat dərc etmək və ictimaiyyətin tələbi əsasında dövlət qurumları tərəfindən idarə olunan digər müvafiq ekoloji məlumatları təqdim etmək öhdəliklərini tənzimləyir. Ətraf mühitə dair məlumatların dərc edilməsi və ya həmin məlumatların mübadiləsi və yayılması prosedurlarının məyyənləşdirilməsi öhdəliyini, eləcə də məlumatların aşkar olunmasını və istifadəsini / təkrar istifadəsini təmin etmək üçün ümumi metadata standartlarının istifadəsi ilə bağlı müddəalar daxil olmaqla, mövcud qanunvericilik bazası əlavə olaraq yenilənməlidir. Mövcud qanunvericilik bazasının genişləndirilməsi və müxtəlif dövlət qurumları arasında müvafiq prosedurların təmin edilməsi, beynəlxalq və AB-nin standartlarına tədricən uyğunlaşdırılması məqsədilə bu sahələrdə əlavə işlərin aparılması tövsiyə olunur.

2020-ci ildə Azərbaycan ENI SEIS II East layihəsi çərçivəsində Avropa Ətraf Mühit Agentliyi tərəfindən AB-nin texniki və maliyyə dəstəyi ilə “Ekoportal” işləyib hazırlamışdır. Hazırda “Ekoportal” su ilə bağlı məlumatların yayılması üçün vahid giriş nöqtəsidir, lakin bu ətraf mühitə dair hər hansı digər məlumatların mübadiləsi və yayılmasının dəstəklənməsi üçün çevik bir alət kimi işlənib hazırlanmışdır. “Ekoportal”-ın ətraf mühitə dair digər tematik sahələrinə genişləndirilməsi nəzərdə tutulur.

**Təklif olunan tövsiyələr**

Mövcud vəziyyətin təhlilindən sonra təklif olunan yox xəritəsi elektron hökumət, açıq məlumatlar və ətraf mühitə dair məlumatların yayılması sahəsində gələcək inkişaf üçün əsas sahələri əks etdirir və inkişaf üçün konkret tədbirlərin görülməsini təmin edir. Bundan əlavə, yol xəritəsinin tətbiqinin asanlaşdırılması üçün “Ətraf mühitə dair məlumatların bölüşdürülməsi və yayılmasının dəstəklənməsi məqsədilə açıq məlumatlar və elektron hökumətin qabaqcıl praktikası” hesabatında təqdim edilmiş bir sıra nümunə və praktik tövsiyə təqdim edilir.

Bu mürəkkəb sahədə ölkənin əldə etdiyi uğurlar və çevik irəliləyiş əhəmiyyətli dərəcədə aydın şəkildə müəyyən edilmiş prioritetlərdən, çoxsahəli komandadan və irəliləyişin müntəzəm monitorinqindən asılıdır. Bundan əlavə, nəzərdən keçirilmək üçün təklif olunan bir və ya bir neçə sahədə irəliləyiş əldə edildikdən sonra, yol xəritəsinin aktuallığını qorumaq və ölkə üçün əsas prioritetlərə yönəltmək üçün buna yeni düzəlişlər və əlavələr edilməlidir.

Yol xəritəsi kontekstində Azərbaycan üçün tövsiyə olunan tədbirlər aşağıdakı kateqoriyalara bölünmüşdür: siyasi, hüquqi və texniki tədbirlər. Bunlar, xüsusən aşağıdakı məsələləri əhatə edir:

- Siyasi tədbirlər: bu tədbirlər, xüsusilə elektron hökumət üzrə yeni strategiyanın qəbul edilməsini, eləcə də açıq məlumatlar və ətraf mühitə dair məlumatlarla bağlı siyasətin işlənib hazırlanması və ətraf mühitə dair məlumatı qoruyub saxlayan dövlət qurumları tərəfindən qəbul edilməsini əhatə edir;
- Hüquqi tədbirlər: bu tədbirlər, xüsusilə ətraf mühitə dair məlumatların idarə edilməsi və yayılması üzrə dövlət orqanlarının öhdəliklərinin yenidən nəzərdən keçirilməsini, qarşılıqlı fəaliyyət və metaməlumatların təsviri üçün beynəlxalq standartların qəbul edilməsini, açıq məlumatlara girişin, onların istifadəsinin və təkrar istifadəsinin dəstəklənməsi üçün lisenziyalaşdırma şərtlərinin işlənib hazırlanmasını/yenilənməsini əhatə edir;
- Texniki tədbirlər: “Ekoportalın” bundan sonra inkişafı və populyarizasiyası, ətraf mühitə dair məlumatların kompleks idarə edilməsi və yayılması üzrə dövlət qulluqçularının potensialının artırılması, meta məlumatlarının təsvirinin hazırlanması və ətraf mühiti



*Bu layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir və Avropa Ətraf Mühit Agentliyi tərəfindən həyata keçirilir*

European Environment Agency

sahəsində bir neçə dildə olan veb portalların və İnternet səhifələrinin gücləndirilməsi məsələlərini əhatə edir.

Bütün tədbirlər bir-biri ilə əhəmiyyətli dərəcədə əlaqəli və bir-birindən asılı kimi nəzərdən keçirilməlidir və bu tədbirlərin sinergiyası bütün məlumatların və məlumat zəncirinin hərtərəfli təkmilləşdirməsinə gətirib çıxara biləcəyinə görə, onların ardıcıl tətbiqi yaxından izlənilməlidir.

Uğurlu dayanaqlı inkişafın təmin edilməsi üçün gələcək iş milli siyasətə uyğunluğunu və resursların səfərbər edilməsini tələb edir. Bu tədbirlərin həyata keçirilməsi üçün təklif olunan bütün tədbirlərin həllinə və icrasına nəzarət etmək üçün çoxsahəli qrup yaradılmalıdır.

Hesabatın nəticələrinə əsasən üç xüsusi tövsiyə ölkə üçün prioritet hesab edilməlidir: (1) ətraf mühitə dair hesabatların müntəzəm təqdim edilmsi prosesinin formalaşdırılması, (2) mövcud "kağız" əsaslı ətraf mühit məlumatlarının idarə edilməsi və yayılması proseslərinin rəqəmsallaşdırılması, və (3) ətraf mühitə dair digər tematik sahələr daxil olmaqla, "EcoPortal"-ın bundan sonra inkişaf etdirilməsi və populyarizasiyası, eləcə də Açıq Məlumatlar və Statistik portallarla qarşılıqlı əlaqə. Faktiki olaraq bu tövsiyələr yol xəritəsində göstərilən və aşağıda ümumiləşdirilmiş müvafiq tədbirlərin həyata keçirilməsi ilə əldə edilə bilər:

- Ətraf mühitə dair hesabatların vaxtında və müntəzəm şəkildə təqdim edilməsini təmin edilməsi üzrə dövlət orqanları üçün öhdəliklərin müəyyən edilməsini, ətraf mühitə dair məlumatların idarə edilməsi və yayılması prosesinin rəqamsallaşdırılmasını, eləcə də "EcoPortal"-ın ekologiya ilə bağlı digər tematik sahələrə genişləndirilməsi üzrə yaxın on il üçün Milli Strategiyada prioritetlərin müəyyənləşdirilməsini əhatə edən xüsusi siyasət tədbirləri;
- Dövlət orqanlarının ətraf mühitə dair hesabatların təqdim edilməsi üzrə öhdəliklərini müəyyənləşdirən və "EcoPortal"-ın ətraf mühit sahəsində əsas informasiya sistemi kimi istifadəsini rəsmiləşdirən normativ aktların hazırlanmasına və qəbul edilməsinə, o cümlədən ətraf mühitə dair məlumatların idarə edilməsi, mübadiləsi və yayılması prosesində dövlət orqanları üçün qanuni öhdəliklərə istinad edə biləcək xüsusi hüquqi tədbirlər;

- Birgə layihələr və təcrübə mübadiləsi tədbirlərində təlim proqramları və beynəlxalq əməkdaşlıq vasitəsilə mütəxəssislərin texniki səriştələrinin artırılmasına yönəldilmiş və sonrakı mərhələdə inkişaf etdirilə bilən xüsusi texniki tədbirlər. Texniki səriştələr ətraf mühitə dair davamlı hesabatların hazırlanmasına, ətraf mühidə dair məlumatların populyarizasiyasına, eləcə də ətraf mühitə dair məlumatların idarə edilməsi və yayılması prosesi barədə biliklərin artırılmasına yönəldilə bilər.

Bu hesabat Azərbaycanda elektron hökumətin mövcud vəziyyətini, açıq məlumatların və ətraf mühitə dair məlumatların idarə edilməsini və yayılmasını əks etdirir. Bu sahədə eksponensial artımı və onun yaxın gələcək üçün əsas siyasət prioriteti kimi tanınmasını nəzərə alaraq vəziyyətin müntəzəm olaraq yenilənməsi və təhlili tövsiyə olunur. Bütün tədbirlər bir-biri ilə əhəmiyyətli dərəcədə əlaqəli və bir-birindən asılı kimi nəzərdən keçirilməlidir və bu tədbirlər bütün məlumatların və məlumat zəncirinin hərtərəfli dəyişiklərə gətirib çıxara biləcəyinə görə, onların ardıcıl tətbiqi yaxından izlənilməlidir.



*Bu layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir və Avropa Ətraf Mühit Agentliyi tərəfindən həyata keçirilir*

European Environment Agency